# Səyyar qəbullar




Nohurqışlaq kəndi.


Kiçik Pirəli kəndi.


Çuxur Qəbələ kəndi.


Həmzəli kəndi.

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin fevral ayında səyyar qəbullar Nohurqışlaq, Kiçik Pirəli, Çuxur Qəbələ və Həmzəli kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ".**
**Fotolar S. Umuyevindir.**

***QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2025-ci İLİN MART AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ***

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Vəndam qəsəbəsi | 06.03.2025 | Vəndam 2 saylı tam orta məktəbi, saat $15^{00}$ |
| Tövlə kəndi | 13.03.2025 | Tövlə tam orta məktəbi, saat $15^{00}$ |
| Tüntül kəndi | 19.03.2025 | Tüntül tam orta məktəbi, saat $15^{00}$ |

# Qəbələdə "Qış nağılı" Beynəlxalq Musiqi Festivalı

***Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Bakı Musiqi Akademiyasının və "Gilan"ın dəstəyi ilə fevralın 7-də Qəbələdə ilk dəfə "Qış nağılı" Beynəlxalq Musiqi Festivalına start verilmişdir. "Qış nağılı" 2009-cu ildən ənənəvi təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalının davamı olaraq fevralın 10-dək davam edən festivalda Azərbaycanla yanaşı, Almaniya, Böyük Britaniya, İtaliya, Polşa və Rusiyadan dünya şöhrətli musiqiçilər - ifaçı və dirijorlar, musiqi kollektivləri çıxış etmişlər. Proqrama uyğun olaraq, fevralın 7-də Qəbələ Mədəniyyət Mərkəzinin zalında "Qış nağılı" Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olmuşdur. "Qış nağılı" Beynəlxalq Musiqi Festivalının proqramı çox zəngindir. Musiqisevərlər festival günlərində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin, Bakı Kamera Orkestrinin, Bakı Xoreoqrafiya Akademiyasının şagird və tələbələrinin, "Qaytağı" instrumental ansamblının, Almaniya və Rusiyanı təmsil edən Aydar Qaynullinin "Eyforiya", Polşanın "GlassDuo" ansambllarının maraqlı konsert proqramlarından zövq alaraq, Azərbaycanın və xarici ölkələrdən gələn tanınmış ifaçıların çıxışlarını izləmişlər. Festivalda klassik musiqi ilə yanaşı, vokal və kamera musiqisi axşamları da təşkil olunmuşdu.***



"Qış nağılı" Beynəlxalq Musiqi Festivalının Qəbələ Mədəniyyət Mərkəzində fevralın 7-də açılış




mərasimi keçirilmişdir. Açılış mərasimində festivalın təşkilatçı qurumlarının təmsilçiləri, yerli musiqisevərlər, şəhərin qonaqları iştirak etmişlər. Bu mərasimdə Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti, festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli çıxış edərək festivala uğurlar arzulamışdır. Azərbaycan Respublikası Mədəniyyət Nazirinin müavini Səadət Yusifova çıxış etmiş və bildirmişdir ki, bu festival 2009-cu ildən bu şəhərdə ənənəvi təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalının bir növ davamıdır.

"Qış nağılı" Beynəlxalq Musiqi festivalında Bakı Xareoqrafiya Akademiyasının konsert proqramına da Qəbələ Mədəniyyət Mərkəzində baxılmış, tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

Festivalda kamera musiqisi axşamı da tamaşaçıların ürəyincə keçirilmişdir. Musiqi Akademiyasının professoru, xalq artisti Zəhra Quliyeva çıxış edərək kamera musiqisinin yaranma tarixindən danışmış, möhtəşəm festivalın təşkilatçılığına görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təşəkkür etmişdir. Kamera musiqiçilərinin konsert proqramında çıxış edən xalq artistləri Fərhad Bədəlbəyli, Murad Adıgözəlzadə, Dmitri Sitkovetski (violin, Böyük Britaniya), Sercio Vitale (bariton, İtaliya), Vanessa Qoykoeçra (soprano, İspaniya) tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

Musiqi Festivalı səhnəsində " Eyforiya" ansamblının virtuoz musiqiçilərinin çıxışı, Polşanın "GlassDuo" ansamblının da çıxışları geniş tamaşaçı auditoriyasında rəğbətlə qarşılanmışdır.



Heydər Əliyev Konqres Mərkəzində keçirilən konsertdə Anna və



Arkadius Şafranets cütlüyü tərəfindən diapozonu 5 oktavanı əhatə edən, dünyanın ən böyük şüşəli arfası - "GlassDuo" alətində səsləndirilən dünyaca məşhur bəstəkarların - E.Qriqin, İ.S.Baxin, V.A.-Motsartın, V.S.Çaykovskinin, T.Şopenin, K.Debussinin və s. bəstəkarların əsərləri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

Fevralın 10-da festivalın bağlanış konserti keçirilmişdir. Konsertdə Azərbaycan Respublikasının xalq artisti Ənvər Sadıqovun rəhbərliyi ilə "Qaytağı" instrumental ansamblının və ansamblın solusti, əməkdar artist Emil Əfrasiyabın ifasında səslənən Azərbaycan və Qərbi Avropa bəstəkarlarının əsərləri, kinofilmlərdən musiqilər tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

Beləliklə, "Qış nağılı" Beynəlxalq Musiqi Festivalı şən notlarla başa çatmışdır.

**Fotolar S. Umuyevindir.**